Professor Maka Elbakidze: «Bizi xüsusi mentallıq, səmimilik, qonaqpərvərlik birləşdirir»

Elm Gününə həsr olunmuş tədbirdə iştirak etmək üçün Azərbaycana gələn qonaqlar arasında Tbilisi Dövlət Universitetinin Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun direktor müavini professor Maka Elbakidze də var idi.

- Bu, sizin Bakıya ilk gəlişiniz deyil, doğrudurmu?

- Bəli, təmamilə doğrudur. İnstitutumuz AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə artıq uzun müddətdir ki, əməkdaşlıq edir, "Şota Rustaveli və Nizami Gəncəvi" layihəsini həyata keçirir. Birgə layihənin ilk hissəsi artıq başa çatıb, tədqiqatın nəticələri əsasında ingilis və gürcü dillərində nəşr olunan kitablar ərsəyə gəlib. İngilis dilində kitab Cambridge Scholars Publishing nəşriyyat evində işıq üzü görüb (ikinci redaksiya).

- Məlumdur ki, layihənin ikinci hissəsinin üzərində yalnız ədəbiyyatşünaslar çalışmır.

- Elədir. İş ondadır ki, layihə fənlərarası əsaslarla davam edir, tədqiqatlara sənətşünaslar və musiqişünaslar cəlb olunub. Qeyd edim ki, layihənin ilk hissəsi əsasən mədəniyyətlərarası əlaqələri əhatə edirdi, indi isə biz Nizami və Rustavelinin müasir mədəniyyətdə dərki üzərində çalışırıq.

- AMEA alimlərindən başqa Azərbaycan tədqiqatçıları ilə əməkdaşlıq edirsinizmi?

- Bəli, artıq neçə ildir ki, Bakı Slavyan Universitetində (BSU) çalışan həmkarlarımızla uğurlu əməkdaşlığımız davam edir. Məsələn, "Postbolşevizm və ədəbiyyat" layihəsinin rəhbəri və elmi məsləhətçisi Rəhilə Qeybullayeva ilə sıx elmi əməkdaşlığımız qurulub. Bu səfərimiz zamanı onunla da görüşdük.

Azərbaycan alimləri ilə əməkdaşlıq 2008-ci ildə məhz BSU-dan başlayıb. Sonra Elmlər Akademiyasının ədəbiyyatşünasları ilə tanış olduq, birgə layihələr üzərində çalışmağa başladıq.

Qeyd etməliyəm ki, bu dəfə də Azərbaycana səfərimiz həmişəki kimi, olduqca məzmunlu keçdi. Biz həm AMEA-nın Ədəbiyyat İnstitutunda səmərəli işgüzar görüşlər keçirdik, həm BSU-da olduq, həm də AMEA-nın Elmi kitabxanasında Elm Günü münasibətilə təşkil olunan tədbirdə iştirak etdik.

- Elmi maraqlarınız haqqında bir neçə kəlmə deyərdiniz.

- Qədim gürcü ədəbiyyatı, daha dar çərçivədə isə Şota Rustavelinin yaradıcılığı. Namizədlik dissertasiyam bu mövzuya həsr olunub. Tədqiqat işindən başqa universitetdə pedaqoji fəaliyyətlə də məşğulam.

- Maka xanım, necə düşünürsünüz, elmi əlaqələrdən başqa, ölkələrimizi nə birləşdirir?

- Biz iki Qafqaz ölkəsiyik, və bu həm sizin, həm də bizim ölkəmizə öz təsirini göstərir. Bizi xüsusi mentallıq, səmimilik, qonaqpərvərlik birləşdirir. Biz Bakıya gələndə elə sevinirik ki, elə bil doğma evimizə gəlmişik. Bizi elə qarşılayırlar ki! Və təbii ki, biz də illər boyu əməkdaşlıq və dostluq etdiyimiz azərbaycanlı həmkarlarımıza oxşar münasibət bəsləyirik.

- Məlumdur ki, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Gürcüstan Milli Elmlər Akademiyasının xarici üzvü seçilib. İsa müəllim haqqında nə deyə bilərsiniz?

- İsa müəllim ümumi elmi əsərimizə olduqca ciddi bir fəsil yazan görkəmli alim, ədəbiyyatşünas, gözəl mütəxəssisdir. Nizamişünaslıq sahəsində yaranan bütün sualları biz yalnız İsa müəllimlə dəqiqləşdiririk. Həmçinin qeyd etmək istəyirəm ki, akademik həm gözəl insan, həm də istedadlı elm təşkilatçısıdır. Biz dəfələrlə onun rəhbərliyi ilə keçirilən forumlarda iştirak etmişik, hələ AMEA-nın vitse-prezidenti olduğu zamanlardan, həmişə bu tədbirlər yüksək təşkilat səviyyəsi, dəqiq idarəetməsi ilə seçilib.

Qaliya ƏLİYEVA